Tarix və onun problemləri, №3 2009

ƏFŞAN ŞƏFİYEVA
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun İran tarixi və iqtisadiyyatı şöbəsinin k.e.i.*

# S.H.TAĞIZADƏNIN ELMI-PEDAQOJI FƏALIYYƏTI

İranın çağdaş ictimai-siyasi xadimi, diplomatı və maarifpərvəri olan S.H.Tağızadənin yaradıcılığında mühüm cəhətlərdən biri onun çoxsahəli fəaliyyətidir. S.H.Tağızadənin fəaliyyətinin izlədikcə ilk növbədə diqqəti cəlb edən, sonralar onun cəmiyyətdə müxtəlif vəzifələr tutmasına imkan verən elmi dünyagörüşü olmuşdur. İran tədqiqatçısı Mehdi Müctəhidi yazırdı ki, S.H.Tağızadə «ictimai elmlər sahəsindəki məsələlərə baxışlarında Ə.Talıbov və M.F.Axundzadədən daha üstün olub, İranın mütəfəkkirlərindən sayılır. Tarix və ədəbiyyat sahəsindəki məlumatlılığının genişliyi baxımından bu gün, Mirzə Məhəmmədxan Qəzvinini çıxmaq şərtilə ona tay olacaq ikinci şəxs yoxdur» (8, 20).

İran şəraitində ibtidai təhsil almağın çətinliyinə baxmayaraq, onun oxumağa olan həvəsi və marağı dini kitabları öyrənməsinə səbəb oldu. O, hələ 5 yaşında ikən Qurani-Kərimi mənimsəmişdi. Təhsilə olan marağının nəticəsidir ki, 8 yaşından başlayaraq ərəb və fars mənbələrini oxumağa başlayır (10, 24). Ruhani ailəsində təlim-tərbiyə görmüş Seyid Həsən erkən çağlarından elmə üz tutur və az bir zamanda hədsiz marağı və fövqəladə istedadı nəticəsində zəmanəsinin demək olar ki, bir sıra elmlərini mənimsəyir.

Yeni elmləri öyrənməyə can atan bu istedadlı gənc ustadlardan tibb elmini də öyrənir. Tibbin sirlərini qədim «Şərhi nəfisi» və «Şərhi əsvab» kitablarından öyrənməyə çalışır, hikmət və kəlam elmini isə «Kitabe kəlame quşçi» kitabından mənimsəmişdir. Bu kitab tüllablar (mədrəsə tələbələri) arasında məşhur idi. O, həmçinin Hacı Molla Hadiye Səbzəvarinin və başqalarının kitablarını oxumuşdu (3, 121).

Bununla kifayətlənməyən Seyid Həsən zəmanəsinin təfəkkür tərzindən doğan çətinliklərə, yaşadığı mühitin göstərdiyi təzyiqlərə baxmayaraq, müasir elmlərin öyrənilməsinə üz tutur. S.H.Tağızadə həmin illəri belə xatırlayır: «Artıq 17-18 yaşlarında qədim elmlərin bir çox sahələrində kifayət qədər inkişaf edib qabağa getmişdim. Bunlardan sonra meylimi müasir tibbi öyrənməyə saldım. Bunun üçün ilkin olaraq bir tərəfdən təşrih elmini və həmçinin avropalıların fizika, kimya, hesab, həndəsə, coğrafiya, astronomiya elmlərinin öyrənir, digər tərəfdən də fransız dilini öyrənməklə məşğul olurdum. Fransız dilini dostum və sinif yoldaşım Mirzə Məhəmmədxanla (Tərbiyyət) birlikdə öyrənirdim. «Dərsə atamdan xəlvət gedirdik. Biz birlikdə Mirzə Nəsrullaxanın (Mirzə Əbdüləlinin oğlu) yanında 5 ya 6 il dərs oxuduq. 1891-1895-ci illərdə atamdan gizli bu iqtisası oxudum. Əgər o, bunu bilsəydi mane olardı. Atam, vəfatından 8 ay əvvəl bildi və çox narahat olub əsəbiləşdi» (2, 26).

S.H.Tağızadə öz təhsilini və biliyini artırmaq məqsədilə çox ciddi səy göstərirdi. Müasir İranın və Fransanın o zamanlar tanınmış kitablarını oxuyurdu. Osmanlı türkcəsində və ərəb dilində Misirdə çıxmış kitabları da həvəslə oxuyurdu. Ən maraqlı cəhət isə mütaliələr zamanı onun siyasi fikirlərə və azadlığa meylinin artması və getdikcə şiddətlənməsi idi.

S.H.Tağızadə böyük qardaşının (Seyid Mürtəza) köməyilə bir nəfər üləmanın (Şeyxiyyə üləması) yanında «Kitabe Şeyx Əhməd Ehsani» kitabından dərs oxuyurdu. O, gizlicə gün doğmamışdan əvvəl Şeyx Əlinin yanına gedir və Şeyx Əhməd Ehşaminin «Kitabe şərhe fəraid» kitabını oxuyurdu. S.H.Tağızadə Avropa elmlərini həm İran, həm də Fransa kitablarından öyrənirdi. Bununla yanaşı, həm osmanlı, həm də Misir

Tarix və onun problemləri, №3 2009
kitablarını oxudu. Bunun nəticəsində yavaş-yavaş siyasi fikir və azadlıq tələblərinə yol tapdı. Əlavə edək ki, Talıbovun kitabı və buna bənzər kitablar, xüsusilə Mirzə Mülküm xanın yazıları onun dünyagörüşünə və yaradıcılığına müsbət təsir göstərmişdi (5, 94).

S.H.Tağızadə vaxtaşırı İstanbulda çıxan qəzetlərin səhifələrində gedən məqalələri də izləyirdi. O, İstanbulda nəşr olunan redaktoru və yazarı Hacı Mirzə Mehdi Təbrizi olan «Əztər» qəzetini oxuyurdu. O, Misirdə çapdan çıxmış «Sürəyya», «Pərvəriş və hikmət», Kəlküttə şəhərində çap olunmuş «Həblol mətin» qəzetlərini və hətta oxunması qadağan edilmiş «İbrahim bəyin səyahətnaməsi» kitablarını da oxumuşdu. O, həmçinin Parisdə çıxan və «Surayi Ümmət» adı altında gizlin İrana gətirilən «Gənc Türklər» qəzetini mütaliə edirdi. Bütün bunlar S.H.Tağızadənin düşüncə və baxışlarına o dərəcədə təsir göstərmişdi ki, sonralar 1894-cü ildə Təbrizin bir qrup ziyalısı ilə birlikdə yeni sistemli elmi bir mərkəz yaratdılar.

S.H.Tağızadə 1897-ci ildə bəzi dostlarının köməyilə birlikdə yeni üslubda və metodda «Tərbiyyət» adlı mədrəsə açdı. Amma çox keçmir ki, bu mədrəsə qısa müddət fəaliyyət göstərdikdən sonra bəzi mürtəce fikirli adamların təzyiqi nəticəsində bağlandı (1, 69).

Elmləri öyrənməklə yanaşı tədris işlərinə də can atan S.H.Tağızadə 1907-ci ildə Tehran darülfununun filialı olan «Təbriz Müzəffəriyyə darülfununda» fizika fənni üzrə müəllim işləməyə başlayır. Arada əvvəllər də həndəsə, hesab, coğrafiya və fiziologiyadan dərs demişdi.

Qeyd edək ki, S.H.Tağızadə üç dostu ilə birlikdə hələ 1901-ci ildə «Cədid və elmləri» adlı yeni bir mədrəsə açaraq xarici elmlərin tədrisinə başladılar. Az sonra bu mədrəsənin adını «Tərbiyət» qoydular. O, yazırdı ki, «bu işimiz bomba kimi partladı və əks-səda doğurdu» (4, 126).

Ancaq ruhanilərdən ibarət olan bəzi, bu işin əleyhinə olan qüvvələrin təsiri nəticəsində bu fəaliyyətlər yarımçıq qaldı və dağılışıb getdi.

O zamanlaradək ölkədə darülfundan sonra müəllimxana məşhur idi. Təbrizdə cədid üsulundan dərs keçilən başqa bir mədrəsə yox idi. Yalnız «Kamal» ləqəbli Mirzə Hüseyn adlı bir şəxs Təbrizin uzaq məhəllələrindən birində «Mədrəseye Kamal» adlı bir mədrəsə açmışdı. Orada yalnız ibtidai dərslər deyilirdi.

S.H.Tağızadə yoldaşları ilə birlikdə «Tərbiyət» adlı bir kitab mağazası da təşkil etmişdilər. Ona bu işdə dostlarından Seyid Məhəmməd Şəbüstəri, Mirzə Hüseyn Xan Aştyani (sonralar milli Məclisin kitabxanasının müdiri olub) yaxından kömək etmişdilər. Orada əsasən Avropada çap edilmiş kitablar, Misirdə çıxmış ərəb dilində kitablar, İstanbulda çap edilmiş türk kitabları və b. kimi kitablar satılırdı. Bu kitabxananın müdiri S.H.Tağızadənin qardaşı Seyid Cavab və sonra isə Mirzə Rza xan olmuşdu. Ümumiyyətlə, bu kitabxananın böyük əhəmiyyəti oldu. Xüsusilə də Məşrutə hərəkatı zamanı Təbriz əhalisinin hərəkətə gətirilməsində onun rolu böyük oldu. Çox təəssüflər olsun ki, Məşrutə hərəkatı zamanı I Məclis dağıdılandan sonra Rəhim xan Çələbiyanlı Təbrizə hücum edən zaman bu kitabxananı da yandırmış və nə ələ keçirmişdilərsə onları da qənimət kimi aparmışdılar.

Qeyd edək ki, hələ 1898-ci ildə vəliəhd Məhəmmədəli Mirzənin şəxsi həkimi Loğmanul Məmalek şahzadənin icazəsilə mədrəsə açdı. Onun özü bu mədrəsənin müdiri oldu. Onun müavini isə Mirzə Sadeğe Fərəhani (ona Əbdül Məmalek də deyərdilər) onun müavini idi. O, S.H.Tağızadədən xahiş etmişdi ki, mədrəsədə fizika dərsi desin. S.H.Tağızadə də onun bu xahişini qəbul edib orada məccani dərs deməyə başladı. O, bu zaman tibb elmini və cədid elmlərinin öyrəndi. Ümumiyyətlə, onun tibb təhsili 1893-1900-cü illərdə davam etmişdi.

Avropa ədəbiyyatını orijinaldan oxumaq həvəsi S.H.Tağızadəni xarici dilləri öyrənməyə sövq edirdi. 1898-1899-cu illərdə onun fransız dilinə böyük marağı yarandı. O, həmçinin ingilis dilini də öyrənmək istəyirdi. O, Təbrizdəki Amerika məktəbinə gedib, orada iki il ingilis dilini öyrəndi. Bununla bərabər bir amerikalı qadın müəllimənin yanında kimya, mexanika və fəlsəfə elmlərini öyrəndi.

S.H.Tağızadənin fəaliyyəti çoxşaxəli idi. O, həm elmi-pedaqoji fəaliyyətlə məşğul olur, eyni zamanda güzəranlarını təmin etmək üçün digər işlər də görürdülər. Belə bir şəraitdə dostu Təbriyətlə birlikdə aptek açıb müxtəlif dava-dərmanlar satmağa başlayan S.H.Tağızadə tibb sahəsində biliyini artırır. Dərmanlar əsasən Almaniyadan gətirilirdi. Bu fəaliyyətin əvvəllər müəyyən qədər faydası da olurdu. Osmanlı ərazisindən qaçmış bir erməni də müxtəlif dava-dərmanlar və kitablar əldə edərək ona verirdi. Bu işdə doktor Praşayan, Teryakyan (Müzəffərəddin Şahın şəxsi həkimi olmuşdur), Dağvaryan onunla əməkdaşlıq edirdi. Sonra bu iki nəfər erməni (Teryakyan və Dağvaryan) Tehrana gedərək Müzəffərəddin Şahın şəxsi həkimi oldular.

S.H.Tağızadənin dünyada cərəyan edən hadisələrdən baş çıxarması, bir sıra xarici dilləri və İranın problemini bilməsi onu ölkəsi üçün lazımlı bir şəxsə çevirdi. O, rəsmi dövlət vəzifələrində çalışmadığı zamanlar belə, lazım gələndə İran dövlətini beynəlxalq elmi forumlarda təmsil etmişdir. İran hökuməti 1936-cıilin yayında Yunanıstanda təşkil edilmiş «Şərqşünasların beynəlxalq ittifaqı» konqresində ölkəni təmsil etmək üçün S.H.Tağızadəni oraya ezam etdi və o, bu işin öhdəsindən bacarıqla gəldi.

1941-ci ildə Londona səfir təyin edilən S.H.Tağızadə diplomatik fəaliyyətlə yanaşı, elmi işlə də ciddi məşğul olur. 15 il ərzində bəzi elmi məqalə və kitablarını yazıb bir neçə dildə nəşr etdirir (9, 165).

S.H.Tağızadə həmçinin Məhəmmədəlixanla birlikdə «Təbii coğrafiya və siyasət» adlı əsər də yazmışdır. Bu kitabda İran məmləkətinin tarixindən bəhs olunurdu.

Əlavə edək ki, S.H.Tağızadənin şərq və qərb dillərini mükəmməl bilməsi, Şərqdə, Avropa və bütövlükdə dünyada gedən ictimai-siyasi proseslərə yaxından bələd olması bəzi ölkələrin qabaqcıl tədris və elmi mərkəzlərin diqqətini özünə cəlb edirdi. Lakin dolanışıq vasitələri əldə etmək üçün də S.H.Tağızadənin işləməyə ehtiyacı vardı. Buna görə də o, 1953-ci ilin dekabrında Londonun «Şərq dilləri mədrəsəsində» dərs demək üçün İngiltərədən dəvət alır. S.H.Tağızadə bu dəvəti qəbul edərək Londona yola düşür. 1936-cı il yanvarın 10-da Londona gələn S.H.Tağızadə 6 ilə yaxın adı çəkilən mədrəsədə dərs deyir (6, 411).

1941-ci ilin oktyabrından etibarən İngiltərədə diplomatik fəaliyyətdə olan S.H.Tağızadə, bununla yanaşı elmi-ədəbi fəaliyyətlə də məşğul olmuşdur. Bu zaman o, Londonda şərq dilləri məktəbində fars dilini tədris etmək üçün dəvəti alır və 1946-cı ilədək orada qaldı. Bu zaman vaxtını səmərəli keçirməyə çalışan S.H.Tağızadə «Əski İranda təqvim» adlı kitab yazır. Onun həmçinin ingilis və alman dillərində yeddi məqaləsi çap olunur (7, 277).

Ümumiyyətlə, S.H.Tağızadənin elmi-pedaqoji fəaliyyəti milli zəmində inkişaf etməmiş, yalnız fars millətçiliyinə, İran dövlətçiliyinə, ölkənin bütövlüyünün qorunub saxlanılmasına həsr edilmişdir. Onun fəaliyyətinin hərtərəfli tətbiq olunması eyni zamanda İranda cərəyan etmiş bir sıra ictimai-siyasi proseslərə aydınlıq gətirmək üçün belə müəyyən material verir.

## *QEYDLƏR:*

1.Adəmiyyət F. Fekre azadi və müqəddimate nehzəte məşrutiyyət. Tehran, «Sohan», 1961, 376 s.
2.Əbdüş Şəkur Əhsən. Renessans dər İran. Tərcome Mürtəza Əsədi, Tehran, «Tərhenou», 342 s.

3.Ələsgər Səmiru. İran dər donreye səltənəte Qacar. Tehran, 1371, 327 s.
4.Ərəc Əfşar. Azadi və siyasət. Tehran, «Səhər», 1357, 347 s.
5.Hüccətullah Əsil. Zendegi və əndişeye Mirzə Mülküm xan. Tehran «Ney», 1376, 378 s.
6.Kərim Tahirzadə Behzad. Azərbaycan dər nehzət-e Azərbaycan. Tehran, ilsiz, 526 s.
7.M.Əfşar. Məsələ-ye melliyət və vəhdəte melli. – Zəbane farsi dər Azərbaycan. Tehran, 1368, 362 s.
8.Mehdi Müctəhidi. Azərbaycan şəxsiyyətləri məşrutiyyət illərində. Tehran, «Zərrin», 1371, 209 s.
9.Şəfiyeva Əfşan. S.H.Tağızadənin həyat və yaradıcılığına bir baxış. – Filologiya məsələləri, № 2, Bakı 2002, «Nurlan» s. 160-170
10.Tağızadə S.H.. Tufanlı həyat. Tehran, 1367, 426 s.

**АФШАН ШАФИЕВА**
***младший научный сотрудник АНА Института Востоковедения имени З.М.Буниядова***

## НАУЧНО-ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ СЕИД ГАСАН ТАГИЗАДЕ

Сеид Гасан Тагизаде выделяется своей многогранной деятельностью в общественной, политической и культурной жизни Ирана XX века.

Бросая беглый взгляд, очевидно, что он оказал влияние на развитие различных областей науки, просветительства и культуры.

Научно-педагогическая деятельность С.Г.Тагизаде сыграла особую роль в процессе модернизации Ирана.

**AFSHAN SHAFIYEVA**
***scientific personal of Azerbaijan`s National of Scientific Institute of Oriental Studies named after academician Z.M.Bunyatov***

## S.H.TAGIZADEH`S SCIENTIFIC-PEDAGOGICAL ACTIVITY.

S.H.Tagizadeh`s liberal creativity S.H.Tagizadeh, outstanding social-political leader had a peculiar role in social, political, cultural life of Iran in the 20th century.

Taking brief glance at only S.H.Tagizadeh`s literal creativity it is derived that he had efforts in development of many scientific areas, enlightment and education and cultural development of population. S.H.Tagizadeh`s scientific-pedagogical creativity had a particular role in modernitation of Iran population.

***Rəyçilər: prof.A.Baxşəliyev, t.e.d.R.C.Süleymanov.***
***AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Elmi Şurasının 29 iyun 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***